# Sizdən biri məscidə daxil olduqda, oturmazdan əvvəl iki rükət namaz qılsın

Əbu Qatədə əs-Suləmidən (Allah ondan razı olsun) rəvayət edildiyinə görə Peyğəmbər (Allahın salavatı və salamı onun üzərinə olsun) belə buyurmuşdur: «Sizdən biri məscidə daxil olduqda, oturmazdan əvvəl iki rükət namaz qılsın».
[Səhih] [Müttəfəqun aleyhi(əl-Buxari və Musliminsəhih gördüyü hədislər)]

Peyğəmbər (Allahın salavatı və salamı onun üzərinə olsun) günün hər hansı bir vaxtında və həmçinin hər hansı bir məqsəd üçün olmasından aslı olmayaraq məscidə daxil olan hər kəsin oturmadan öncə iki rükət namaz qılmasına təşviq etmişdir. Qılınan bu iki rükət namaz "Təhiyyətul-məscid" namazı adlanır.

https://sunnah.global/hadeeth/az/show/65091